BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2013

UOT 94 “19/ ...”

# RUMINİYA-AZƏRBAYCAN DİPLOMATİK-SİYASİ MÜNASİBƏTLƏRİ STRATEJİ TƏRƏFDAŞLIĞA DOĞRU

**S.Ə.İMANOVA**
***Bakı Dövlət Universiteti***
***Imanovas@Bk.Ru***

*Məqalədə Rumıniya ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələdə inkişafı, 1995-1996-cı illərdə diplomatik-siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığın hüquqi-normativ bazasının yaradılmasından bəhs olunur. Rumıniya ilə Azərbaycan arasında dostluq münasibətləri strateji tərəfdaşlığa doğru inkişaf etməyə başladı. Cənubi Qafqaz dövlətləri ilə əlaqələr Rumıniya xarici siyasətinin prioriteti elan edildi. Qara dəniz regionunda siyasi, iqtisadi, sosial əməkdaşlıq, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli, tələbə və gənclər, idman mübadiləsinin genişlənməsi və s. sahədə strateji tərəfdaşlıq münasibətləri yarandı.*

**Açar sözlər:** Azərbaycan Respublikası, Rumıniya Respublikası, strateji tərəfdaşlıq, diplomatik münasibətlər, prezident, dostluq, əməkdaşlıq, müqavilə, bəyannamə, ərazi bütövlüyü

Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Şərqi Avropa dövlətləri içərisində demokratik inkişaf yolunu, xarici siyasətində Avroatlantik strukturlara inteqrasiyanı əsas istiqamət götürən Rumıniya ilə əlaqələri yeni mərhələdə inkişaf etdirmək zərurəti yarandı. 1992-ci ilin martın 11-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Rumıniya Xarici İşlər Nazirliyinə diplomatik münasibətlərin yaradılması təklifi ilə nota göndərdi (4). Rumıniya Xarici İşlər Nazirliyinin 1992-ci il iyunun 16-da göndərdiyi cavab notasında Rumıniya hökumətinin Azərbaycan Respublikası ilə qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək niyyətində olması göstərilirdi. Qarşılıqlı notalar mübadiləsi edildiyi andan etibarən Rumıniya ilə Azərbaycan arasında diplomatik münasibətlər yaranırdı (19). 1993-cü ildə ümumilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra iki ölkə arasında əlaqələr yeni mərhələdə inkişaf etməyə başladı. 1995-ci il iyunun 30-da Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Rumıniyaya səfəri iki ölkə arasında münasibətlərdə yeni bir mərhələnin başlanğıcını qoydu. 1995-ci il iyulun 2-də prezidentlər Heydər Əliyev və İ.İliyesku “Azərbaycan Respublikası ilə Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında bəyannamə” imzaladı. Bəyannaməyə görə Azərbaycan və Rumıniya qarşılıqlı münasibətləri inkişaf etdirmək və əməkdaşlığın

yeni imkanlarını aşkar etmək məqsədlə dövlət və hökumət başçıları, parlamentlər arasında, siyasi partiyalar və habelə hər dövlətin milli qanunvericiliyinə uyğun olaraq yerli inzibati orqanlar səviyyəsində siyasi dialoqun genişləndirilməsini dəstəkləyəcəklər (6).

1996-cı ilin mart ayında prezident Heydər Əliyevin dəvəti ilə Rumıniyanın dövlət başçısı İ.İliyesku Azərbaycana rəsmi səfərə gəldi. Martın 27-də Azərbaycan prezidenti ilə görüşdə İ.İliyesku Heydər Əliyevin Buxarestdə olarkən Qara dəniz və Xəzərətrafı ölkələrin sıx əlaqələrinin yaradılması haqqında irəli sürdüyü təklifi dəstəklədiyini, Rumıniyanın mövqeyinin Azərbaycan ilə üst-üstə düşdüyünü bir daha təsdiqlədi (15). Martın 27-də Azərbaycan və Rumıniya arasında dostluq və əməkdaşlıq haqqında dövlətlərarası müqavilə imzalandı. Sənədə görə tərəflər beynəlxalq münasibətlərdə zor tətbiq edilməsinin, zor tətbiq etməklə hədələmənin və sərhədlərin zor tətbiq etməklə dəyişdirilməsinin yolverilməz olduğunu və bütün beynəlxalq problemlərin sülh yolu ilə həll edilməsinin zəruriliyini təsdiq etdilər (7).

1998-ci il iyunun 29-da Rumıniya prezidenti Emil Konstantinesku Azərbaycana rəsmi səfərə gəldi. Səfər zamanı "Azərbaycan Respublikası ilə Rumıniya arasında dostluq münasibətlərinin və tərəfdaşlığın inkişafı haqqında bəyannamə" imzalandı. Bəyannaməyə əsasən Azərbaycan Respublikası və Rumıniya BMT Nizamnaməsinin və ATƏT-in əsas sənədlərinin prinsiplərini rəhbər tutaraq, öz münasibətlərini bir-birinin müstəqilliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və dəstəklənməsinə əsaslanan qarşılıqlı hörmət, etimad və tərəfdaşlıq ruhunda qururlar (5, v.76). Rumıniya tərəfi Azərbaycanın Avropa Şurasının və Ümumdünya Ticarət Təşkilatının tamhüquqlu üzvlüyünə namizədliyinin dəstəklədiyini bildirir (5, v. 77).

Rumıniya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinin tərəfdarıdır. 2001-ci ildə ATƏT-ə sədrliyi zamanı Rumıniya Azərbaycanın haqlı mövqeyini və ərazi bütövlüyünü dəstəklədi, Ermənistanın təcavüzünü yolverilməz hesab etdi. 2002-ci ildə avqustun 26-da Rumıniya xarici işlər naziri M.Ceoana 11 avqust 2002-ci ildə Dağlıq Qarabağda keçirilmiş "prezident seçkiləri" ilə bağlı Azərbaycan xarici işlər naziri V.Quliyevə məktub göndərdi. Məktubda Rumıniya tərəfinin bu "seçkiləri" tanımadığı və "seçkilərə" etiraz etdiyi bildirilirdi (1, v. 463).

2002-ci il oktyabrın 29-da Rumıniya prezidenti İ.İliyesku Azərbaycana növbəti rəsmi səfərə gəldi. Oktyabrın 29-da prezidentlər Heyder Əliyev və İ.İliyesku "Azərbaycan Respublikası ilə Rumıniya arasında tərəfdaşlıq haqqında bəyannamə" imzaladılar. Bəyannamədə Azərbaycan və Rumıniya Avropa Birliyinin dəstəyi ilə TASİS və PHARE proqramlarının imkanlarından ən yaxşı şəkildə istifadə, TRASEKA və İNOQEYT layihələrinin inkişaf etdirilməsi və Avropa nəqliyyat şəbəkəsinə daxil olunması məqsədilə sıx əməkdaşlıq edəcəklərini bildirdilər (8, vv. 180-181).

Azərbaycan prezidenti İlham Əliyev 2004-cü il oktyabrın 11-də Rumıniyaya ilk rəsmi səfər etdi. Keçirilən görüş zamanı tərəflər Avropa Birliyinin yeni qonşuluq siyasətini bəyəndiklərini vurğuladılar və Qafqaz ölkələrinin, xüsusilə Azərbaycanın bu siyasətə daxil olmasını çox əlamətdar hal kimi qiymətləndirdilər. Avropa Birliyinin Qafqazdakı münaqişələrin həllində səylərinin gücləndirilməsi zərurəti qeyd olundu.

Prezidentlər İlham Əliyev və İ.İliyesku Birgə Bəyannamə imzaladılar (10). Bəyannamədə ölkələrə qarşı yönəlməyən, Azərbaycan və Rumıniyanın beynəlxalq öhdəliklərinə zidd olmayan ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığın möhkəmlənməsi bəyan olunurdu (11, vv. 148-150).

Rumıniya prezidenti T. Basesku 2006-cı il oktyabrın 11-də Azərbaycana ilk rəsmi səfərə gəldi. Dövlət başçıları arasında keçirilən görüşdə prezident İlham Əliyev Azərbaycanın Avroatlantik strukturlara inteqrasiya siyasətini Rumıniyanın həmişə dəstəklədiyini bildirərək, bu sahədə Rumıniyanın təcrübəsinin Azərbaycan üçün önəmli olduğunu vurğuladı (13). T.Basesku təhlükəsizlik sahəsində də münasibətlərin inkişafının önəmli olduğunu bildirdi: "Biz Azərbaycanı Xəzər regionunda özümüzə dost və tərəfdaş ölkə hesab edirik. Düşünürük ki, bizim tərəfdaşımız olan Azərbaycan enerji təhlükəsizliyi baxımından bu gün Avropa bazarlarında çox yüksək rəqabət qabiliyyətinə malik ölkə ola bilər" (13).

Oktyabrın 11-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Rumıniya dövlət başçısı T.Basesku Birgə bəyannamə imzaladılar. Bəyannamədə tərəflər qanunvericilik orqanları, iki ölkənin icraedici hakimiyyətləri arasında siyasi dialoqun inkişafına dair öhdəlik götürür, enerji sahəsində əməkdaşlığın genişləndirilməsi və enerji dəhlizlərinin diversifikasiyasının dəstəklənməsi göstərilirdi (14, 229-230).

Azərbaycan prezidenti İlham Əliyev 2009-cu il sentyabrın 28-29-da Rumıniyada rəsmi səfərdə oldu. Sentyabrın 28-də "Azərbaycan Respublikası və Rumıniya arasında Strateji Tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə" imzalandı. Sənədə görə Rumıniyanın Avropa İttifaqı və NATO-ya üzvlüyünü nəzərə alaraq, ikitərəfli əlaqələrin əhatə dairəsini genişləndirmək, Xarici İşlər Nazirlikləri səviyyəsində əməkdaşlığı inkişaf etdirmək, qarşılıqlı dialoqun aparılmasında parlament dostluq qruplarının fəaliyyəti, geniş Qara dəniz regionunda siyasi, iqtisadi və sosial əməkdaşlığı təşviq etmək nəzərdə tutulurdu. Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında BMT və ATƏT-in sənədlərinə uyğun olaraq sülh yolu ilə həlli, təhlükəsizlik məsələləri haqqında müntəzəm məsləhətləşmələrin keçirilməsi, Qara Dəniz Sinerjisi çərçivəsində Rumıniya tərəfinin təşəbbüslərinin dəstəklənməsinin zəruriliyi göstərilirdi (17). Bu sahələrdə Rumıniya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətləri yarandı.

Səfər zamanı "Azərbaycan ilə Rumıniya arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş" imzalandı. Sazişə görə tərəflər terrorçuluq və onun maliyyə-

ləşdirilməsi, pasport, viza və digər rəsmi sənədlərin saxtalaşdırılması, iqtisadi, korrupsiya, kompüter informasiyası, əqli mülkiyyət əleyhinə cinayətlər, kimyəvi, bakterioloji, radioaktiv, nüvə və digər silahların əldə olunması, istehsalı, idxal-ixracı, satışına qarşı mübarizə sahəsində əməkdaşlıq edirdi (2).

Səfər zamanı "Azərbaycan ilə Rumıniya arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş" imzalandı. Sazişə görə tərəflərdən birinin ərazisində baş verən fövqəladə halların nəticələri həmin dövlətin öz vasitələri ilə aradan qaldırıla bilmədikdə digər tərəf ona qarşılıqlı yardımı təmin edə bilərdi (3).

İki ölkə arasında diplomatik münasibətlərin inkişafında Rumıniyanın xarici işlər naziri Teodor Bakonskinin 2010-cu il martın 18-də Azərbaycana səfərinin böyük əhəmiyyəti oldu. T.Bakonski prezident İlham Əliyevlə görüş keçirdi. Azərbaycanla Rumıniya arasında güclü tərəfdaşlıq münasibətlərinin və bütün sahələrdə diplomatik əlaqələrin olduğunu qeyd edən dövlət başçısı bu səfərin Avropa İttifaqı – Azərbaycan əməkdaşlığının və regional vəziyyətin müzakirə edilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi. T.Bakonski də öz növbəsində iki ölkənin prezidentləri arasında şəxsi münasibətləri strateji tərəfdaşlıq əlaqələrinin inkişafında başlıca amil kimi qiymətləndirdi (18).

2011-ci il aprelin 18-də Rumıniya prezidenti T.Basesku prezident İlham Əliyevin dəvətilə Azərbaycanda rəsmi səfərdə oldu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident T.Basesku bildirdi ki, Rumıniya Avropa İttifaqı və NATO sərhədlərinə yaxın ərazilərdə belə münaqişələrin baş verməsindən narahatdır. Rumıniya prezidenti belə münaqişələrin Avropanın təhlükəsizliyinə xələl gətirdiyini bildirdi (21). T.Basesku vurğuladı ki, Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsidir: "Bu, Azərbaycan daxilində erməni azlığı məsələsidir. Bu məsələ beynəlxalq hüququn normaları əsasında həll olunmalıdır"(16).

Səfər zamanı "Azərbaycan Respublikası və Rumıniya arasında Strateji Tərəfdaşlığın yerinə yetirilməsi üçün Birgə Fəaliyyət Planı" imzalandı. Sənədə görə tərəflər geniş Qara dəniz regionunda sosial-iqtisadi inkişafın təşviq olunmasında bir-birini strateji tərəfdaş hesab edərək, uzadılmış münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdar çıxaraq, enerji infrastrukturu sahəsində Cənub Qaz Dəhlizinin əhəmiyyəti nəzərə alınaraq siyasi dialoqu davam etdirir, iqtisadi əlaqələr və investisiyaya dair əlverişli mühiti dəstəkləyirdi. Sənəddə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (İPAP) və Planlaşdırma və Analiz Prosesi (PARP) kimi tərəfdaşlıq mexanizmləri, hərbi təhsil və təlimlər sahəsində əməkdaşlıq etmək, Hərbi Hava Qüvvələri Akademiyalarında xarici dillərdə terminologiya dərsləri təşkil etmək, ədliyyə sistemi və penitensiar idarəçilik sahəsində islahatlarla əlaqədar ekspertlərin mübadiləsini keçirmək, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələri və xalqlararası münasibətləri inkişaf etdirmək, 2004-cü ildə təhsil sahəsində iki ölkə arasında imzalanmış sazişin müddəalarını yerinə yetirmək nəzərdə tutulurdu (9).

T. Baseskunun Azərbaycana səfəri zamanı “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rumıniyanın Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq Protokolu” imzalandı. Protokolda ikitərəfli və beynəlxalq məsələlərə dair dialoq və məsləhətləşmələrin keçirilməsi, enerji sahəsində əməkdaşlıq və təcrübə mübadiləsinin aparılması, Avropa Qonşuluq Siyasəti və Şərq tərəfdaşlığı sahəsində əməkdaşlıq imkanlarından istifadə olunması, Avroatlantik Tərəfdaşlıq Şurası və Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planından istifadə edərək Azərbaycanla NATO arasında siyasi dialoqun inkişafı nəzərdə tutulurdu (12).

Beləliklə, 2011-ci ildə Cənubi Qafqaz və Mərkəzi Asiyada enerji layihələrini dəstəkləmək, tərəfdaş ölkələrlə xüsusi əlaqələri inkişaf etdirmək, Azərbaycanla Strateji tərəfdaşlığın yerinə yetirilməsinə dair fəaliyyət planını imzalamaq, daxili islahatlar keçirməkdə Cənubi Qafqaz dövlətlərinə yardım etmək, inkişaf proqramlarını genişləndirmək, Ruminiya xarici siyasətinin prioritetinə çevrildi (20). İki ölkə arasında imzalanan müqavilə və sazişlərdə Rumıniya tərəfdən Azərbaycanın ərazi bütövlüyü dəstəkləndi. Qarşılıqlı surətdə iki ölkə səfirliklərinin açılması nəticəsində diplomatik-siyasi münasibətlərin inkişafında əməli surətdə müsbətə doğru irəliləyişlər baş verdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan və Rumıniya // Sədrin görüşləri, 2002. Azərb. Resp. Milli Məclisinin Aparatı, beynəlxalq münasibətlər şöbəsi. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (ARMMA): f. 2941.
2. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı əməkdaşlıq haqqında saziş // http://www.e-qanun.az/print.php?internal=view&target=1&docid=19040&doctype=0.
3. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında saziş // http: // www. e-qanun. az/ print. php? Internal = view & target = 1&docid = 19039&doctype=0.
4. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Rumıniya Xarici İşlər Nazirliyinə göndərdiyi 11 mart 1992-ci il tarixli, 196/Dpo nömrəli nota // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (AR XİN) cari arxivi. Beynəlxalq hüquq və Muqavilələr İdarəsi.
5. Azərbaycan Respublikası ilə Rumıniya arasında dostluq münasibətlərinin və tərəfdaşlığın inkişafı haqqında bəyannamə // 1998-ci il noyabrın 24-dən dekabrın 1-dək Azərbaycan Respublikası Milli Məclisinin iclasında qəbul olunmuş qanunlar. ARMMA: f. 2941, siy.1, iş 594.
6. Azərbaycan Respublikası və Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında bəyannamə, 1995, 2 iyul //AR XİN-in cari arxivi. Beynəlxalq hüquq və Muqavilələr İdarəsi.
7. Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında Müqavilə, 1996, 27 mart // AR XİN-in cari arxivi. Beynəlxalq hüquq və Muqavilələr İdarəsi.
8. Azərbaycan Respublikası və Rumıniya arasında tərəfdaşlıq haqqında bəyannamə // 2003-cü il noyabrın 28-dən dekabrın 5-dək Azərbaycan Respublikası Milli Məclisinin iclasında qəbul olunmuş qanun və qərarlar. ARMMA: f. 2941, siy.1, iş 1110.
9. Azərbaycan Respublikası və Rumıniya arasında Strateji Tərəfdaşlığın həyata keçirilməsi üzrə Birgə Fəaliyyət Planı // AR XİN-in cari arxivi. Beynəlxalq hüquq və Muqavilələr İdarəsi.

10. Azərbaycan Respublikasının prezideni İlham Əliyevin Rumıniyaya rəsmi səfəri. "Azərbaycan" qəz., 2004, 12 oktyabr, № 238 (3853).
11. Azərbaycan Respublikasının prezidentinin və Rumıniya prezidentinin birgə bəyannaməsi // 2005-ci il martın 1-dən-4-dək Azərbaycan Respublikası Milli Məclisinin iclasında qəbul olunmuş qanunlar. ARMMA: f. 2941, siy.1, iş 1272.
12. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rumıniyanın Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol, 2011, 18 aprel // AR XİN-in cari arxivi. Beynəlxalq hüquq və Muqavilələr İdarəsi.
13. Azərbaycan və Rumıniya dost, müttəfiq ölkələrdir. "Azərbaycan" qəz., 2006, 12 oktyabr.
14. Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi, 2002, II hissə., AR XİN. Bakı: GARİSMA, 2009, 1040 s.
15. İşgüzar münasibətlər, səmərəli əməkdaşlıq. "Azərbaycan" qəz., 1996, 28 mart.
16. Rumıniya prezidenti: "Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsidir" // http://www.milli.az/news/politics/45338.html.
17. Rumıniya və Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlığın yaradılması haqqında Birgə bəyannamə // AR XİN-in cari arxivi.
18. Minister of Foreign Affairs of Romania Teodor Baconschi pays official visit to Azerbaijan // http://www.azembassy.ro
19. Nota al Ministerul Afacerilor Externe al Romania № 28/1750,16 iunie 1992 // AR XİN-in cari arxivi. Beynəlxalq hüquq və Muqavilələr İdarəsi.
20. Prioritațile diplomației române în 2011 // http://www.mae.ro/node/1605
21. Vizita oficiala in Republica Azerbaidjan, (Baku, 18-19 aprilie 2011)COMUNICAT DE PRESĂ *(18 aprilie 2011) //* http: //cms. presidency. ro/?pag=59& year=2011& sid=13162& id_p=13168

## ПУТЬ К СТРАТЕГИЧЕСКОМУ ПАРТНЕРСТВУ В ДИПЛОМАТИЧЕСКО-ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЯХ РУМЫНИИ И АЗЕРБАЙДЖАНА

**С.А.ИМАНОВА**

### РЕЗЮМЕ

В данной статье говорится о создании нормативно-правовой основы для сотрудничества дипломатическо-политических, экономических, культурной и гуманитарной сферах в 1995-96 гг., а также развитии нового уровня в отношениях между Румынией и Азербайджаном. Дружественные отношения между Румынией и Азербайджаном стали развиваться в направлении стратегического партнерства. Налажевание отношений с Южнокавказкими государствами были обьявлены приоритетным направлением во внешней политики Румынии. Было создано стратегическое партнерство в таких сферах как социальное,политическое, экономическое сотрудничество в рамках Черноморского региона, разрешение Нагорно-Карабахского конфликта в рамках международного права, расширение программ обмена для молодежи студентов и спортсменов и др.

**Ключевые слова:** Азербайджанская Республика, Республика Румыния, стратегическое партнерство, дипломатические отношения, президент, дружба, сотрудничество, соглашения, декларации, территориальная целостность

# ROMANIAN - AZERBAIJANİ DIPLOMATIC-POLITICAL RELATIONS TOWARDS STRATEGIC PARTNERSHIP

**S.A.IMANOVA**

**SUMMARY**

The development of Azerbaijani-Romanian relations in the new stage, the formation of legal – normative basis of diplomatic-political, economical, cultural and humanitarian cooperation in 1995-1996 years are analysed in the article. The relations between Romania and Azerbaijan began to develop towards the strategic partnership. Establishment of relations with South Caucasian states was declared the priority of Romanian foreign policy.

The strategic partnership relations were established in the fields of political, economical, social cooperation within the framework of the Black Sea Region, solution of Nagorno Karabakh conflict within the framework of international law, expansion of student, youth, sport exchange programs etc.

**Key words:** The Azerbaijan Republic, Republic of Romania, strategic partnership, diplomatic relations, president, friendship, cooperation, agreement, declaration, territorial integrity